HDIM.DEL/0356/14/AZ
01 October 2014

# AZƏRBAYCAN

**Əsas təsbitlər**: Azərbaycanda mövcud olan ictimai dini tolerantlığa baxmayaraq, hökumətin son bir neçə il ərzindəki fəaliyyəti nəticəsində, xüsusilə 2009-cu ildə qəbul edilmiş din haqqında məhdudlaşdırıcı qanunun pozulmasına görə cərimələrin 2010-2011-ci illərdə artırılmasından sonra, dini etiqad azadlığı ilə bağlı vəziyyət pisləşmişdir. Dini təşkilatların qeydiyyat üçün göndərdikləri müraciətləri ya gecikdirilmiş və ya rədd edilmiş, dini qruplar bağlanmış, keçən ildə dinc din fəalları saxlanılmış, cərimələnmiş və həbs edilmişdir. Bu narahatçılıq səbəbilə ABŞ Beynəlxalq Dini Etiqad Azadlıqları Komitəsi 2014-cü ildə Azərbaycanı sıralamada yenidən 2-ci yerə endirmişdir. Azərbaycana 2-ci yer ilk dəfə 2013-cü ildə verilmişdir.

## Arayış

Azərbaycanda dini etiqad haqqında 2009-cu ildə qəbul edilmiş qanun dini etiqad azadlıqlarını məhdudlaşdırmaq və cərimələri, polis reydlərini, saxlanmaları və həbsləri əsaslandırmaq üçün istifadə olunur. Qanunun müddəalarına aşağıdakılar daxildir: mürəkkəb və müdaxiləçi icbari dövlət qeydiyyatı; qeydiyyatdan imtina edilməsi üçün apelyasiya şikayətinin verilməsi imkanının olmaması; dini fəaliyyətin icmanın qeydiyyata alındığı ünvanla məhdudulaşdırılması; dini materialların məzmunu, hazırlanması, idxalı, ixracı və yayılması üzərində geniş dövlət nəzarəti; moizə etmək, dini öyrətmək və mərasimləri aparmaq üçün dövlət lisenziyalı dini təhsil. 2012-ci ilin oktyabr ayında Avropa Şurasının (AŞ) Venesiya Komissiyası və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) Azərbaycanın dini etiqad haqqında qanununun ölkənin beynəlxalq insan haqları ilə bağlı götürdüyü öhdəliklərə cavab vermədiyi barədə hüquqi rəy vermişdir. 2014-cü ilin may ayından etibarən Azərbaycan altı ay ərzində AŞ Nazirlər Şurasının sədri olacaq.

Dini etiqad haqqında qanunu pozan şəxslərə və ya qruplara inzibati cərimələr tətbiq olunurlar. Mümkün pozuntulara aşağıdakılar daxildir: qeydiyyatdan keçməmək; dövlətdən icazə almadan dini görüşlər və mərasimlər keçirmək; qrupun qeydiyyatdan keçdiyi ünvandan kənarda dini fəaliyyət göstərməsi; dövlət tərəfindən təsdiq edilmiş nizamnaməyə uyğun olmayan fəaliyyət. 2010-cu ildə cərimələr 2009-cu il ilə nisbətən 16 dəfə artırılmışdır. Dini təhsil haqqında müddəaların pozulması cinayət məsuliyyətinə cəlb olunmasına gətirib çıxarır. Uşaqları dini fəaliyyətlə məşğul olmağa və ya dini təhsil almağa məcbur edənlər cərimə olunur və ya iki ilədək həbs cəzasına məhkum edilirlər.

Azərbaycan parlamenti dini ekstremizmin və xarici missioner fəaliyyətinin yayılmasının qarşısını almaq məqsədilə 2013-cü ildə dini etiqad, QHT-lər haqqında və digər qanunlara yeni məhdudlaşdırıcı düzəlişləri qəbul etmişdir.

## Dini etiqad azadlıqları ilə bağlı 2013-2014-cü illərdə vəziyyət

***Qeydiyyat vasitəsilə hökumət nəzarəti:*** Qeydiyyat prosesi mütləqdir və qeydiyyatı rədd edilmiş və ya qeydiyyatdan imtina edən qruplar "qeyri-qanuni" hesab edilirlər. Qeydiyyatdan keçmiş hər hansı dini təşkilatın fəaliyyət göstərməsinə yalnız onun hüquqi ünvanında icazə verilir. Beynəlxalq Dini Azadlıq Assosiasiyası və Devamm kimi müəyyən dini etiqad azadlığı QHT-lərinin qeydiyyat ərizəsi rədd edilmişdir. 2012-ci ilin fevral ayında Azərbaycanın Ali Məhkəməsi Bakıdakı Praise Pentekostal kilsəsinin qeydiyyata alınmasına hökm vermiş, lakin elə həmin ayda Yehova Şahidləri qeydiyyatla bağlı Ali Məhkəmədə baxılan işi uduzmuşlar.

***Dini fəaliyyətlə bağlı cəzalar*:** Qeydiyyatdan keçməmiş dini icmaların üzvləri reydlərlə, dini mətnlərin müsadirə olunması və digər cərimələrlə üzləşirlər. Azərbaycan QHT-lərin Hüquqi Müdafiəsi və Maarifləndirmə Cəmiyyəti İctimai Birliyi öz ibadətlərini dinc yolla həyata keçirdiklərinə görə həbs olunmuş 51 müsəlmanın siyahısını tərtib etmişdir (əlavəyə bax).

Onların əksəriyyəti məktəblərdə baş örtüklərinin qadağan olunmasına qarşı ictimai etiraz aksiyalarında iştirak etdiyinə görə 2012-ci ildən bəri məhkum edilib. Məscidlərə dövlətin Qafqaz Müsəlmanları İdarəsindən imam təhkim etmək cəhdini ictimai surətdə tənqid edən İslam teoloqu Taleh Bağırov 2013-cü ilin noyabr ayında uydurma qanunsuz narkotika alverinə görə ittiham olunaraq, iki illik həbs cəzasına məhkum edilmişdir. 2013-cü ilin avqust ayında Bağırovun sürücüsü Anar Məlikov da narkotika alverində ittiham olunmaqla, 19 aylıq həbs cəzasına məhkum edilmişdir. Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) məruzəçisi 2013-cü ilin yanvar ayında AŞPA-ya təqdim etdiyi məruzəsində qeyd etmişdir ki, Azərbaycanda 23 nəfər dinlə bağlı siyasi ittiham edilərək, həbs edilmişdir; Azərbaycanda siyasi məhkumlarla bağlı qətnamə AŞPA-dan keçə bilmədi.

***Müsəlmanlar üzərində əlavə məhdudiyyətlər:*** Azərbaycandakı müsəlmanlar (əksəriyyəti şiələrdir) əlavə məhdudiyyətlərə məruz qalırlar. Bütün müsəlman dini rəhbərləri dövlətin dəstəklədiyi Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təyin edilir və Azərbaycanda təhsil almış vətəndaşlardan olmalıdır; bütün məscidlər Qafqaz Müsəlmanları İdarəsinə tabe olmalıdırlar və yalnız Azərbaycan vətəndaşları İslami dini icmalar yarada bilərlər. 2013-cü ildə Müsəlmanlar İdarəsinə bağlı olmayan heç bir müsəlman icması hüquqi statusa malik olmamışdır. Polis hökumətin məscidlərdən kənarda ibadət etməyi qadağan edən 2008-ci il qərarını tətbiq etməyə davam edir. Təhsil Nazirliyi 2010-cu ildə məktəbli formasını tətbiq etmişdir, bu da öz növbəsində İslami baş örtüyünü qadağan edir. Həmin qadağanın universitetlərə tətbiq edilməyə başlanılması 2013-cü ildə çoxlu şikayətlərə və etirazlara gətirib çıxarmış və bu səbəbdən insanlar həbs edilmişdir. 2013-cü ilin dekabr ayında yerli rəsmilər Peştatükdə tikilməkdə olan bir kənd məscidini dövlətdən icazəsi olmadığı üçün dağıtmışdılar. 2013-cü ilin sonunda qəbristanda qeyri-rəsmi olaraq ibadət etdiklərinə və bunun üçün rəsmi icazələri olmadığına görə iki müsəlman bir illik əmək haqqı mislində cərimə olunmuşdur.

***Dini azlıqlar üzərində məhdudiyyətlər:*** Demək olar ki, bütün Protestant məzhəblərinin (Baptistlər, Yeddinci gün Adventistləri və Pentekostallar da daxil olmaqla), o cümlədən Yehova Şahidlərinin də hüquqi statusu yoxdur. 2013-cü ilin may ayında məhkəmə qeydiyyatdan keçməmiş dini fəaliyyətlə məşğul olan iki baptistə qarşı cərimə müəyyən etmişdir. İki Gürcü ortodoks icması qeydiyyatdan keçmişdir, lakin Qax rayon icra hakimiyyəti üç Gürcü ortodoks kilsəsində sitayişi 30 dəqiqə ilə məhdudlaşdırmış və kilsələrin əksəriyyəti dini ayinlərdən məhrum edilmişdir. Bakının tarixi Erməni apostol qriqoryan İllüminator Kilsəsi abadlaşdırılmışdır və hazırda Azərbaycanın Prezident Aparatının İşlər İdarəsinin arxiv şöbəsi kimi fəaliyyət göstərir.

***Dini etiqadına görə hərbi xidmətdən imtina olunması ilə bağlı durum:*** Azərbaycan 2011-ci ildə AŞ-na qoşularkən alternativ xidmətə imkan verəcəyini vəd etmişdi, lakin hələ də dini etiqadına görə orduda xidmətdən imtina olunması haqqında qanun qüvvəyə minməmişdir. Konstitusiya alternativ xidmətə icazə verdiyinə baxmayaraq, digər qanunlar hərbi xidmətdən imtina edənlərə 2 illik həbs cəzası müəyyən edir. 2013-cü ilin iyun ayında ölkənin dini etiqadına görə hərbi xidmətdən imtina etmiş və hər ikisi Yehova Şahidləri olan iki məlum şəxsi məhkum amnistiyasının bir hissəsi olaraq azad edilmişdilər.

***Dini ədəbiyyata dövlət senzurası:*** Dini ədəbiyyatı hazırlamaq, idxal-ixrac etmək və ya yaymaq üçün dövlətdən icazə almaq tələb olunur. Dini ədəbiyyatı rəsmi olaraq təsdiq edilmiş yerlərdən kənarda satmaq olmaz, əcnəbilər isə moizə apara bilməzlər. Qanunu ilk dəfə pozanlar üçün iki ilədək həbs cəzası nəzərdə tutulur, "konspirativ" yaxud mütəşəkkil qruplar və ya qanunu təkrar pozanlar isə iki ildən beş ilədək həbs cəzası ilə üzləşirlər. Əcnəbilər və vətəndaşlığı olmayanlar tərəfindən yaradılmış qeyri-məlum "dini təşviqat" üzərindəki hüquqi qadağalar bəzi müsəlmanların, protestantların və Yehova şahidlərinin, o cümlədən keçmiş Sovet İttifaqı vətəndaşlarının və uzun müddətli rezidentlərin də deportasiya olunmasına gətirib çıxarmışdır. 2013-cü il may ayında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi qadağan edilmiş ədəbiyyatın siyahısını açıqlayacağını elan etsə də, hələ də siyahı açıqlanmamışdır. Hökumət evlərə reydlər etmiş və Quran kitabları, Türk müsəlman teoloqu Səid Nursinin əsərləri və baptist ədəbiyyatı da daxil olmaqla dini ədəbiyyatı müsadirə etmişdir. O, ölkə sərhədində olan dini mətnləri də müsadirə etmişdir. Hesabata əsasən, Gürcü ortodoks kilsəsi, katolik kilsəsi və bəzi müsəlman qrupları ədəbiyyatı daha asanlıqla əldə edə və ya dərc etdirə bilirlər.

***Sitayiş yerlərinin bağlanması və müsadirə olunması:*** 2009-cu ildən bəri Azərbaycanda bir çox ibadət yerləri, həmçinin Gəncədə "Alban" məscidi, Bakıda Şəhidlər məscidi və Naxçıvanda Cümə məscidi kimi məscidlər, bağlanmış və ya dağıdılmışdır. Bakıdakı baptistlər öz tarixi ibadət yerlərinin qaytarılmasını gözləyirlər. 2012-ci ilin sonunda Bakı bəhailəri şəhərin yenidən qurulması ilə bağlı axırıncı tarixi binalarını itirmişlər. Gürcü ortodoks kilsəsi Qax rayonunda dörd kilsəni təkrar açmağa və bir monastır qurmağa çalışır.

***Naxçıvan forpostunda vəziyyət:*** Naxçıvan sakinləri dini etiqad azadlığı ilə bağlı Azərbaycanın digər rayonları ilə müqayisədə daha kəskin məhdudiyyətlərlə üzləşirlər; yerli sünni müsəlmanların ibadət etməyə yerləri yoxdur. Bahailər, adventistlər və hari krişnaların fəaliyyəti qadağan edilmişdir.

## ABŞ siyasəti üçün tövsiyələr

Son onillikdə ABŞ-ın Azərbaycanla bağlı siyasətində Əfqanıstan müharibəsi məsələsinə daha çox diqqət yetirilmiş, insan haqları və dini azadlıqla bağlı məsələlərə o qədər də əhəmiyyət verilməmişdir. ABŞ BDEAK inanır ki, bu siyasət uzaqgörən olmamışdır. Təkamül edən geosiyasi vəziyyət Birləşmiş Ştatlar üçün yeni təhlükəsizlik öhdəliklərini yarada və ya yaratmaya bilər, lakin ABŞ BDEAK tövsiyə edir ki, ABŞ hökuməti aşağıdakı üsullarla Azərbaycanda dini azadlığı və əlaqədar insan hüquqlarını prioritetləşdirməlidir:

- Dini qrupların qeydiyyatdan keçmədən sərbəst fəaliyyət göstərməsinə imkan verməsi və dini qurumların qeydiyyatını asanlaşdırmaq və könüllü etmək üçün dini etiqad haqqında qanuna düzəliş etməsi üçün Azərbaycan hökumətinə təzyiq göstərmək;

- Azərbaycandakı dini etiqad azadlığı ilə bağlı məlumatı BMT, Avropa Şurası (AŞ) və ATƏT kimi təşkilatlar tərəfindən beynəlxalq arenada ictimailəşməklə, Azərbaycanda dini etiqad azadlığı üzərində ictimai nəzarəti gücləndirmək və Azərbaycan vətəndaşlarının beynəlxalq normalar pozulmaqla ittiham olunması hallarını bu beynəlxalq arenada şərhlərlə işıqlandırmaq;

- Azərbaycan hökumətini BMT-nin Dini Etiqad və ya Əqidə Azadlıqları üzrə, Ədliyyənin Müstəqilliyi və İşgəncələr üzrə Xüsusi Məruzəçilərinin səfərlərinə razılıq verməyə məcbur etmək, xüsusi səfər günlərini müəyyən etmək və belə səfərlər üçün tam və zəruri şəraiti

təmin etmək;

- ABŞ-ın Azərbaycandakı səfirliyinin Azərbaycan insan haqları fəalları ilə aktiv təmasda olmasını, hər bir məhbusun öz ailəsi ilə daha çox görüşə bilməsi, insan haqları üzrə nəzarətçilərin xidmətindən, adekvat tibbi yardımdan və hüquqşünas xidmətindən daha çox istifadə edə bilməsinə imkan vermək məqsədilə Azərbaycan hökumətinə təzyiq edilməsini təmin etmək;

- ABŞ hökumətinin Azərbaycanla bağlı proqramlarında dini etiqad azadlığını qrantlar kateqoriyası və fəaliyyət sahəsi kimi müəyyən etmək; Dövlət Departamentinin, dini etiqad azadlığı və insan haqları daxil olmaqla, "VIII Bənd" başlıqlı tədqiqat proqramının və dil proqramlarının maliyyələşdirilməsini bərpa etmək; dövlət tərəfindən maliyyələşdirilən Demokratiyaya Dəstək Milli Fondunu tolerantlıq və dini etiqad yaxud əqidə azadlığı ilə bağlı vətəndaş cəmiyyəti proqramları üçün qrantlar verməyə təşviq etmək; və

- ABŞ xarici siyasətinin bir elementi kimi, Beynəlxalq Yayımlar üzrə Nəzarət Şurasını Azərbaycanda insan haqları, həmçinin dini etiqad yaxud dini əqidə azadlığı ilə bağlı məlumatın, radio, internet və digər vasitələrlə, xüsusilə Azərbaycan dilində, yayımının artırılması üçün təşviq etmək.